Dənizkənarı Bulvar İdarəsi İdarə Heyətinin
Q-4 nömrəli, 17 may 2019-cu il
tarixli Qərarı ilə təsdiq edilmişdir

**Dənizkənarı Bulvar İdarəsinin Apellyasiya Şurası haqqında Əsasnamə**

**1. Ümumi müddəalar**

1.1. Dənizkənarı Bulvar İdarəsinin Apellyasiya Şurası (bundan sonra – Apellyasiya Şurası) sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı Dənizkənarı Bulvar İdarəsinin (bundan sonra – İdarə) , onun strukturuna daxil olan bölmələrin və tabeliyindəki qurumların qərarlarından, digər hərəkət və ya hərəkətsizliyindən (bu Əsasnamənin 1.8-ci bəndində nəzərdə tutulmuş hallar istisna olmaqla) verdikləri şikayətlərə (bundan sonra – şikayət) baxan, ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən kollegial orqandır.

1.2. Apellyasiya Şurası öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin aktlarını, bu Əsasnaməni və digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. Apellyasiya Şurası öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları, habelə hüquqi və fiziki şəxslərlə qarşılıqlı surətdə fəaliyyət göstərir.

1.4. Bu Əsasnamənin məqsədləri üçün "şikayət" dedikdə sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı İdarənin qərarlarından, digər hərəkətlərindən və ya hərəkətsizliyindən Apellyasiya Şurasına verdikləri yazılı müraciət başa düşülür.

1.5. Apellyasiya Şurası öz fəaliyyətini qanunçuluq, şəffaflıq, kollegiallıq və qərəzsizlik prinsipləri əsasında qurur.

1.6. İdarənin İdarə Heyəti və Aparatının vəzifəli şəxslərinin qərarlarından, digər hərəkət və ya hərəkətsizliyindən Apellyasiya Şurasına verilmiş şikayətlərə İdarənin Apellyasiya Şurasında baxılır.

1.7. İdarənin strukturuna daxil olan bölmələrin və tabeliyindəki qurumların vəzifəli şəxslərinin qərarlarından, digər hərəkət və ya hərəkətsizliyindən Apellyasiya Şurasına verilmiş şikayətlərə Apellyasiya Şurasında o halda baxılır ki, eyni məzmunlu şikayətə, ilkin olaraq, İdarənin özündə baxılmış olsun.

1.8. Şikayətə aşağıdakı hallarda Apellyasiya Şurasında baxıla bilməz:

1.8.1. şikayət bu Əsasnamənin 1.1-ci bəndində nəzərdə tutulmuş tələblərə uyğun olmadıqda;

1.8.2. şikayət korrupsiya ilə əlaqədar hüquqpozmalara aid olduqda və ya şikayətə baxılarkən aidiyyəti vəzifəli şəxslərin əməllərində korrupsiya ilə əlaqədar hüquqpozma əlamətləri müəyyən edildikdə (həmin əlamətlərə aid hissədə);

1.8.3. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 35.1-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, şikayət vermiş şəxs (şəxslər) barəsində şikayətdə göstərilmiş əsaslar üzrə Apellyasiya Şurası və ya Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurası tərəfindən əvvəllər qərar qəbul olunduğu müəyyən edildikdə;